**AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 2024-CÜ İLDƏ FƏALİYYƏTİ BARƏDƏ**

# HESABAT

## DİNİ ETİQAD AZADLIĞININ TƏMİN EDİLMƏSİ, DİNİ KONFESSİYALARLA İŞİN TƏŞKİLİ SAHƏSİNDƏ

Dövlət Komitəsi tərəfindən dini qurumların qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatı, dövlət reyestri aparılmış, dini icmaların fəaliyyətlərini qanunvericiliyə uyğun təşkil etmələri ilə bağlı tədbirlər görülmüşdür. 2024-cü il ərzində 1 dini icma qeydiyyata alınmış, 60 dini icmanın sənədlərində dəyişiklik edilmişdir.

**Dini qurumların qeydiyyatı**




**Dini ibadət yerləri haqqında məlumat**




***

## DİNİ QURUMLARIN MALİYYƏLƏŞMƏSİ VƏ QEYRİ-İSLAM DİNİ İCMALARLA İŞ SAHƏSİNDƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 19 yanvar tarixli Sərəncamı ilə Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan dini qurumlara ayrılan yardımlar**

| | |
|---|---|
| Qafqaz Müsəlmanları İdarəsi | 2 milyon manat |
| Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası | 350 min manat |
| Bakı şəhəri Dağ yəhudiləri dini icması | 350 min manat |
| Avropa yəhudilərinin Bakı dini icması | 350 min manat |
| Katolik Kilsəsinin Apostol Prefekturası | 350 min manat |
| Alban-Udi xristian dini icması | 350 min manat |
| Digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Mənəvi Dəyərlərin Təbliği Fonduna (MDTF) | 350 min manat |

Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyətinin, xalqımızın çoxəsrlik birgəyaşayış ənənələrinə söykənən nümunəvi mühitin qorunub saxlanılması istiqamətində aparılan maarifləndirmə tədbirləri hesabat dövründə də davam etdirilmişdir. Bu qəbildən olan silsilə tədbirlərin davamı olaraq 2024-cü il yanvar ayının 11-də Komitənin təşkilatçılığı ilə Azərbaycan İlahiyyat İnstitutunda “Dinin siyasiləşdirilməsi: zərərli təsirlər” mövzusunda konfrans keçirilmişdir. Konfransda yerli xristian dini icmaları ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatında Azərbaycandakı dini etiqad azadlığı ilə əlaqədar yer almış yanlış mülahizələrə, qərəzli kampaniyalara qarşı öz mövqelərini ictimaiyyətə təqdim etmişlər.

2024-cü il 3-5 may tarixlərində Komitənin təşkilatçılığı və qeyri-islam dini icmalarının təşəbbüsü ilə Pasxa bayramı ilə əlaqədar dini icmaların Suqovuşan, Talış kəndlərində yerləşən alban məbədlərinə, o cümlədən Qəbələ rayonuna səfərləri təşkil olunmuşdur. Komitənin təşkilatçılığı ilə ölkəmizdə fəaliyyət göstərən xristian dini icma nümayəndələrinin işğaldan azad olunmuş bölgələrə və digər regionlara səfərləri baş tutmuşdur.

Ötən il mart ayının 8-də Komitənin və respublikada fəaliyyət göstərən müxtəlif konfessiyalara mənsub dini icmaların birgə təşkilatçılığı ilə ilk dəfə “Dinlərarası Harmoniya” adı altında festival-sərgi keçirilmişdir. Ölkəmizdə mənəvi dəyərlərin, tolerant və multikultural ənənələrin inkişafı və təbliği məqsədilə təşkil olunan festivalda dini konfessiyaların fəaliyyətini əks etdirən stendlər, videoçarxlar nümayiş etdirilmiş, işğaldan azad edilən ərazilərimizdə yerləşən tarixi-dini abidələrin işğal dövründəki və hazırkı vəziyyətini əks etdirən “Qarabağ” stendi təqdim olunmuşdur.

***

## DİN XADİMLƏRİNİN TƏYİNATI VƏ ATTESTASİYASI SAHƏSİNDƏ

Komitə tərəfindən 2024-cü il 4-6 mart tarixlərində İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara təyin olunmuş din xadimlərinin attestasiyası keçirilmişdir.

**Din xadimlərinin attestasiyası**




İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün müsahibə (4-cü dəfə) 2024-cü il 27 iyun – 6 avqust tarixlərində keçirilmişdir.

**Din xadimlərinin müsahibəsi**




Hesabat dövründə Dövlət Komitəsi tərəfindən ehtiyat kadr siyahısında olanlardan 72-si din xadimi təyin edilmişdir. Bununla da müsahibə yolu ilə təyin olunmuş din xadimlərinin sayı 276 nəfərə (52 nəfər qadın, 224 nəfər kişi) çatmışdır. Hazırda ehtiyat kadrlar siyahısında 26 nəfər var. Müsahibəyədək rəsmi din xadimi olmuş 10 nəfər hazırda vəzifələrini icra edir. 17 nəfərin rotasiya qaydasında iş yerləri dəyişdirilmiş, 54 nəfər isə vəzifədən azad olunmuşdur.

**Ehtiyat kadr siyahısından təyin olunan din xadimləri haqqında məlumat**




2024-cü ilin avqustun 15-də İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələr üzrə 5-ci dəfə müsahibə elan olunmuşdur. Biri qadın dini ayinlərin icraçısı olmaqla 4 vakant vəzifə üçün keçiriləcək müsahibədə iştirak etmək üçün 36-sı qadın olmaqla 118 nəfər sənəd vermişdir.

**Müsahibə yolu ilə təyin edilmiş din xadimləri barədə ümumi statistika**




***

## DİNŞÜNASLIQ EKSPERTİZASI SAHƏSİNDƏ

Hesabat dövründə ölkəyə idxal edilməsi ilə bağlı Komitənin Ekspertiza şöbəsinə daxil olmuş müraciətlər əsasında 3906 adda dini məzmunlu ədəbiyyata baxılmışdır.

## DİNİ TƏHSİL SAHƏSİNDƏ

Hesabat dövründə Dövlət Komitəsi tərəfindən dini təhsil müəssisələrinin və müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinin qanunvericiliyə uyğun tənzimlənməsi, dini təhsilin keyfiyyətinin artırılması ilə bağlı işlər görülmüşdür.

**Azərbaycan İlahiyyat İnstitutunun tələbə və məzunları**




Hazırda ölkədə din sahəsi üzrə kadr hazırlayan 1 ali təhsil müəssisəsi - Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərir. İnstitutda təhsil bakalavr pilləsində "İslamşünaslıq" və "Dinşünaslıq", magistratura, doktorantura və dissertantura pilləsində isə "Dinşünaslıq" ixtisasları üzrə aparılır.

Dini fəaliyyət sahəsində orta ixtisas təhsilli kadr hazırlığının həyata keçirilməsi üçün Nazirlər Kabinetinin 8 dekabr 2023-cü il 444 nömrəli Qərarı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutu yanında Bakı İlahiyyat Kollecinin "Dini mənəvi xidmət" ixtisasına ilk dəfə tələbə qəbulu həyata keçirilmişdir. Kollecə 2024/2025-ci tədris ili üzrə qəbul yalnız tam orta təhsilini (onbirillik) başa vurmuş abituriyentlər arasında aparılmışdır. Kollecə 2024-cü ildə 20 tələbə qəbul olunmuş və plan yeri tam dolmuşdur.

***Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinə dair.*** Azərbaycan İlahiyyat İnstitutu (İnstitut) 2024-cü il üzrə fəaliyyətini müvafiq İş Planına əsasən yerinə yetirmişdir. İnstitutda tədris mövcud dərs cədvəllərinə və sillabuslara uyğun həyata keçirilmişdir.

Tələbələrin dil üzrə bilik və bacarıqlarını daha da təkmilləşdirmələri üçün 1 oktyabr 2023-cü il tarixindən İlahiyyat fakültəsinin təşkilatçılığı ilə Ərəb dili kursu fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27.03.2024-cü il tarixli 163s nömrəli Sərəncamı ilə təsdiq olunmuş doktoranturaya qəbul planına əsasən, İnstitutun doktoranturasına fəlsəfə doktoru proqramı üzrə "Dinşünaslıq" ixtisasına 1 (bir) tələbə qəbul olunmuşdur.

Mübadilə proqramı çərçivəsində İnstitutun "İslamşünaslıq" ixtisası üzrə təhsil alan III tədris ilinin 2 (iki) tələbəsi "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetində, "Dinşünaslıq" ixtisası üzrə təhsil alan III tədris ilinin 2 (iki) tələbəsi isə Türkiyədə İstanbul 29 Mayıs Universitetində təhsilini davam etdirmişdir. İnstitutun professor-müəllim heyətinin və digər əməkdaşlarının 2024-cü il ərzində elmi-tədqiqat və elmi-publisistik fəaliyyətləri nəticəsində 20-yə yaxın metodik vəsait, fənn proqramları və kitab ərsəyə gəlmişdir. Həmçinin yerli elmi jurnallarda 19 məqalə, beynəlxalq nüfuzlu elmi jurnallarda 9 məqalə, beynəlxalq və respublika elmi konfrans, simpozium və

forumlarda 23 tezis, məruzə və məqalə  təqdim və nəşr olunmuş, “Din araşdırmaları”, “İlahiyyat” jurnalları, İnstitutun illik fəaliyyətini əks etdirən bülleten çap olunmuşdur.

İnstitut öz fəaliyyətində xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasına xüsusi yer ayırmışdır.  İnstitutda 2024-cü ilin fevralın 22-də ABŞ-nin İsa Məsihin axırzaman müqəddəsləri kilsəsinin təmsilçisi, “Stirlinq” fondunun icraçı direktoru Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti ilə, oktyabrın 1-də İndoneziyanın Sunan Kalijaga Dövlət İslam Universitetindən olan nümayəndə heyəti ilə görüşlər, martın 7-də Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Damir Muhetdinovun “Rusiyada İslam tarixi” kitabının təqdimat mərasimi keçirilmişdir.

2024-cü ilin may ayının 27-də Azərbaycan İlahiyyat İnstitutu ilə İndoneziyanın Syarif Hidayatullah Dövlət İslam Universiteti, mayın 28-də Sunan Kalijaga Dövlət İslam Universiteti, oktyabrın 7-də ABŞ-nin Briqam Yanq Universiteti arasında Anlaşma Memorandumları, noyabrın 18-də Türkiyə Respublikasının Ərzincan Binəli Yıldırım Universiteti ilə Əməkdaşlıq Protokolu imzalanmışdır.

***Bakı İlahiyyat Kollecinin fəaliyyətinə dair.*** Kollec 2024-cü il üzrə fəaliyyətini müvafiq İş Planına əsasən yerinə yetirmişdir. Kollecdə 2024/2025-ci tədris ilinin payız semestrində tədris mövcud dərs cədvəllərinə və sillabuslara uyğun olaraq həyata keçirilmişdir. Payız semestrinin qış imtahan sessiyasına hazırlıq prosesinə başlanılmışdır. Fənlər üzrə imtahanların əyani formada, əsasən, yazılı şəkildə, müstəsna hallarda (Qurani-Kərim imtahanı) isə şifahi şəkildə keçirilməsi nəzərdə tutulmuşdur.

Tələbələrin dil üzrə bilik və bacarıqlarını daha da təkmilləşdirmələri üçün 2024-cü ilin oktyabrın 1-dən etibarən Ərəb dili və Qurani-Kərim kursları fəaliyyətə başlamışdır.

Kollecin rəhbərliyindən ibarət nümayəndə heyəti subbakalavr çərçivəsində dini təhsil və tədris ilə bağlı təcrübə toplamaq məqsədilə 2024-cü ilin noyabrın 25-28-də Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur. Nümayəndə heyəti səfər çərçivəsində Türkiyə Respublikası Milli təhsil nazirinin müavini Celile Eren Ökten və Din Tədrisi Mərkəzinin müdiri Ahmet İşleyen ilə görüşmüş, eyni zamanda Ankarada yerləşən “Şəhid Cengiz Polat Anadolu” (Fənn və Texnologiya) imam-xətib liseyində, “Tevfik İleri Anadolu” imam-xətib liseyində, “Beynəlxalq Milli İrade Anadolu” imam-xətib qız liseyində, İstanbul “Recep Tayyip Erdogan Anadolu” imam-xətib liseyində, “M.Emin Saraç Anadolu” imam-xətib liseyində və “Bəyoğlu Anadolu” imam-xətib liseyində tədris prosesi ilə tanış olmuşdur.

***

## DİNİ MAARİFLƏNDİRMƏ SAHƏSİNDƏ

Hesabat dövrü ərzində Komitə ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini radikalizm və ekstremizmə qarşı mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği üçün hərtərəfli maarifçilik işini özündə ehtiva edən kompleks işlərin həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Komitənin strukturları tərəfindən dini maarifləndirmə məqsədilə tədbirlər konfrans, seminar, vebinar, seminar-treninq, görüş və s. formalarda həyata keçirilmişdir.

**Dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş tədbirlər**

| "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Azərbaycan ordusunda dini radikalizmə qarşı mübarizəyə dair 2024-cü il üçün birgə Tədbirlər Planı" çərçivəsində | Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Dini radikalizmə qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə maarifləndirmə istiqamətində birgə işin təşkilinə dair" 2024-cü il üçün Tədbirlər Planı çərçivəsində | "Dini radikalizmə qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə Dövlət Sərhəd Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2024-cü ildə keçirəcəyi birgə Tədbirlər Planı" çərçivəsində | "Ədliyyə Nazirliyi Penitensiar Xidmətin penitensiar müəssisələrində məhkumlar və işçi heyət arasında dini maarifləndirmə işinin təşkili üzrə" Tədbirlər Planı çərçivəsində |
|---|---|---|---|
| 56 tədbir | 3 tədbir | 7 tədbir | 19 tədbir |

Ümumilikdə il ərzində Dövlət Komitəsi tərəfindən dini maarifləndirmə istiqamətində təxminən 45000 nəfərin cəlb olunduğu 900-dən artıq tədbir təşkil edilmişdir.

**Dövlət proqramlarının icrası çərçivəsində həyata keçirilmiş tədbirlər**

| | | |
|---|---|---|
| "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının aidiyyəti bəndlərinin icrası çərçivəsində | "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planına uyğun olaraq uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində işlərin gücləndirilməsi məqsədilə | "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planına uyğun olaraq uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində işlərin gücləndirilməsi məqsədilə |
| 54 tədbir | 38 tədbir | 53 tədbir |
| "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq | "insan Hüquqları Aylığı" çərçivəsində | "Uşaq Hüquqları Aylığı" çərçivəsində |
| 21 tədbir | 23 tədbir | 19 tədbir |

Dini fanatizm, radikalizm, ekstremizmin və dini siyasiləşdirmənin qarşısının alınması məqsədilə bir çox tədbirlər təşkil olunmuşdur.

Ötən il ərzində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə "Qüdrətli Azərbaycan Heydər Əliyevin şah əseridir" mövzusunda din xadimləri və dini icmaların üzvləri arasında yazı müsabiqəsi və müsabiqənin nəticələrinə dair tədbir təşkil edilmişdir.

**Maarifləndirici tədbirlər**

| | |
|---|---|
| Dini fanatizm, radikalizm, ekstremizmin və dini siyasiləşdirmənin qarşısının alınması | 201 tədbir |
| Tolerantlıq, multikulturalizm, dinlərarası və məzhəblərarası yaxınlaşma | 56 tədbir |
| Milli-mənəvi dəyərlərin qorunması və gənclərə vətənpərvərlik ruhunun aşılanması | 90 tədbir |
| Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi | 12 tədbir |
| Tarixi günərlə bağlı tədbirlər | 132 tədbir |
| Ramazan bayramı ilə bağlı | 28 tədbir |
| Məhərrəm ayı ilə bağlı | 60 tədbir |

Naxçıvan, Xaçmaz, Mingəçevir və Masallıda keçirilmiş regional konfransların yekunu olaraq 2024-cü il dekabrın 23-də Bakıda **"Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda Azərbaycan Din Xadimlərinin Forumu** təşkil olunmuşdur. Forumda müvafiq dövlət qurumlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən müxtəlif konfessiyaların nümayəndələri, din xadimləri, eləcə də dini təhsil müəssisələrinin müəllimləri, ilahiyyatçı alim və mütəxəssislər iştirak etmişlər.

**Respublika əhəmiyyətli forum və konfranslar**

| | | | |
|---|---|---|---|
| 16 oktyabr | "Müasir dini təhsil modelləri ənənələr və qlobal çağırışlar kontekstində" mövzusunda respublika elmi-praktik konfransı | Dövlət Komitəsi, AİI və MDTF-nin birgə təşkilatçılığı ilə | Bakı ş. |
| 30 noyabr | "Dövlət-din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində" mövzusunda konfrans | Dövlət Komitəsi | Naxçıvan ş. |
| 5 dekabr | "Dini müstəvidə ideoloji təhlükəsizlik: çağırışlar və perspektivlər" mövzusunda konfrans | Dövlət Komitəsi | Xaçmaz ş. |
| 10 dekabr | "Qloballaşan dünyada ənənəvilik və müasirlik" mövzusunda konfrans | Dövlət Komitəsi | Mingəçevir ş. |
| 14 dekabr | "Dini radikalizm milli-dini həmrəyliyə təhdid kimi" mövzusunda konfrans | Dövlət Komitəsi | Masallı ş. |
| 23 dekabr | "Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər" mövzusunda Azərbaycan Din Xadimlərinin Forumu | Dövlət Komitəsi | Bakı ş. |

Hesabat dövründə "Dövlət və Din" ictimai fikir toplusunun 1 (ümumilikdə 78) sayı ("dovlet-din.az" veb-saytına yerləşdirilmişdir), "Cəmiyyət və Din" qəzetinin 6 sayı hazırlanmışdır.

***"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülmüş işlərə dair.*** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Komitə tərəfindən "Yaşıl gələcək naminə" adlı silsilə tədbirlərdən ibarət abadlıq, yaşıllaşdırma kampaniyası təşkil olunmuşdur. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə may ayının 10-da start verilən kampaniya çərçivəsində respublikamızın paytaxt və bölgələrində yerləşən dini ibadət yerlərində, məscidlərin ətrafında abadlıq, yaşıllaşdırma işləri həyata keçirilmiş və kampaniya dekabrın 24-də başa çatmışdır. Ölkənin 65-dən artıq şəhər və rayonunda 700-ə yaxın dini ibadət evini əhatə edən kampaniyada təxminən 8 min insan iştirak etmişdir.

***

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ

Hesabat dövründə Komitə ölkəmizin dövlət-din münasibətlərinin, tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin xaricdə təbliğ edilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq hesabatlarda ölkəmizə qarşı qərəzli yanaşmanın aradan qaldırılması və xarici ölkələrlə ikitərəfli münasibətlərin təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir.

### Beynəlxalq miqyaslı tədbirlər

**Dini Liderlərin Qlobal Sammiti**

2024-cü il noyabrın 5-6-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramının birgə təşkilatçılığı ilə "Dünya dinləri yaşıl planet uğrunda" şüarı altında Bakıda Dini Liderlərin Qlobal Sammiti keçirilmişdir. Sammitdə 30-a yaxın dünya və ənənəvi dinlərin liderləri, nüfuzlu dini mərkəzlərin başçıları - patriarxlar, Vatikan və Əl-Əzhər rəsmiləri, ümumilikdə 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri, həmçinin media subyektlərinin nümayəndələri iştirak etmişlər.

**“Dinlərarası harmoniya: dinc birgəyaşayışın təşviqi” mövzusunda beynəlxalq konfrans**

Dövlət Komitəsi sədrinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 2024-cü il 15-18 dekabr tarixlərində Mərakeş Krallığının paytaxtı Rabat şəhərində səfərdə olmuşdur. Dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, ICESCO, Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Səfirliyinin birgə təşkilatçılığı ilə Rabat şəhərində ICESCO-nun mənzil-qərargahında “Dinlərarası harmoniya: dinc birgəyaşayışın təşviqi” mövzusunda beynəlxalq konfrans, eləcə də “Ortaq bəşəri dəyərlər, müxtəlif dinlər” adlı fotosərgi keçirilmişdir. ICESCO-nun Rabatda yerləşən mənzil-qərargahında konfrans və sərginin keçirilməsində məqsəd Azərbaycanda tarixən mövcud olan və qarşılıqlı hörmətə əsaslanan dinc birgəyaşayış ənənəsini, dini dözümlülük və multikultural dəyərləri beynəlxalq səviyyədə təşviq etmək, eyni zamanda dini dözümsüzlüyü aradan qaldırmaq istiqamətində ən yaxşı təcrübələri bölüşmək olmuşdur.

Komitə sədri Ramin Məmmədov 2024-cü il 1-3 may tarixlərində Bakıda keçirilmiş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlərin Şuşa görüşündə çıxış edərək, qonaqlara erməni vandalizminin Azərbaycanın maddi-mənəvi irsinə vurduğu ziyan barədə ətraflı məlumat vermişdir. Forum çərçivəsində dini liderlər işğaldan azad edilmiş Füzuli şəhərinə səfər etmiş, onlar erməni vandalizmi, habelə rayon işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən quruculuq işləri barədə məlumatlandırılmışlar.

**Dövlət Komitəsi rəhbərliyinin görüşləri**

- 1 may 2024-cü il. - ABŞ-nin Etnik Anlaşma Fondunun prezidenti və Hampton sinaqoqunun təsisçisi ravvin Mark Şnayer ilə görüş;
- 1 may 2024-cü il. - Rusiyanın baş ravvini Berl Lazar ilə görüş;
- 3 may 2024-cü il. - Şimali Kipr Türk Cümhuriyyəti Diyanət İşləri İdarəsinin sədri Ahmet Ünsal ilə görüş;
- 3 may 2024-cü il. - Azərbaycanda səfərdə olan Türkiyə nümayəndə heyəti ilə görüş;
- 3 may 2024-cü il. - Rusiya Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini Dəmir Muxetdinov ilə görüş;
- 3 may 2024-cü il. - Bütün Gürcüstan Müsəlmanları İdarəsinin nümayəndə heyəti ilə görüş;
- 3 may 2024-cü il. - İƏT-in Avropa İttifaqındakı keçmiş daimi müşahidəçisi İsmət Cahanı ilə görüş;
- 3 may 2024-cü il. - Yəhudi Mədəniyyəti üzrə Memorial Fondun İcraiyyə Komitəsinin sədri Fernando Lottenberqi ilə görüş;
- 3 may 2024-cü il. - Albaniya Beynəlxalq Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü Arben Ramkajı ilə görüş;
- 3 may 2024-cü il. - Argentina Respublikasının Etiqad işləri üzrə katibi Fransisko Sançezi ilə görüş;
- 3 may 2024-cü il. - Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti ilə görüş;
- 3 may 2024-cü il. - "On iki Həvari Kvorumu"nun üzvləri Deyvid Bednar və Cek Gerardı ilə görüş;
- 3 may 2024-cü il. - Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Fondun baş icraçı direktoru Edvard Roun ilə görüş;
- 4 may 2024-cü il. - Parisdəki Ərəb Dünyası İnstitutunun direktoru Karim İfrak ilə görüş;
- 4 may 2024-cü il. - Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru və Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əli ilə görüş;
- 4 may 2024-cü il. - Amerika Dini Azadlıq Mərkəzinin rəhbəri ilə görüş;
- 4 may 2024-cü il. - Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ nümayəndəliyinin təsisçi icraçı direktoru Janna Skot ilə görüş;
- 7 may 2024-cü il. - Amerika Sefardi Federasiyasının icraçı direktoru Ceyson Quberman ilə görüş;
- 10 iyun 2024-cü il. - Beynəlxalq Bəhai İcmasının BMT-dəki Baş nümayəndəsi Bani Duqal ilə görüş;
- 19 iyun 2024-cü il. - Almaniya Federativ Respublikasının Süryani Ortodoks Kilsəsinin rəhbər heyəti ilə görüş;
- 24 iyun 2024-cü il. - Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdakimov ilə görüş;
- 30 sentyabr 2024-cü il. - Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkil etdiyi "Sülhün, dialoqun və tolerantlığın qorunmasında mədəni irsin rolu" adlı XV Beynəlxalq Multikulturalizm Məktəbinin iştirakçıları ilə görüş;
- 15 oktyabr 2024-cü il. - Türkiyə Cümhuriyyəti İbn Xaldun Universitetinin Himayəçilər Şurasının sədri İrfan Gündüz ilə görüş;
- 28 oktyabr 2024-cü il. - ABŞ-nin Dinlərarası Qonşuluq Şəbəkəsinin nümayəndə heyətinin üzvləri ilə görüş.

## Xarici ölkələrə səfərlər

### Portuqaliya Respublikasına səfər

Dövlət Komitəsinin sədri 2024-cü il 14-16 may tarixlərində Kral Abdullah bin Əbdüləziz Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) təşkilatçılığı ilə "Transformativ dialoq: sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusunda keçirilən Qlobal Dialoq Forumunda iştirak etmək məqsədilə Lissabonda səfərdə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qlobal Dialoq Forumunun iştirakçılarına ünvanlanmış müraciəti Forum iştirakçılarının diqqətinə çatdırılmışdır.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- Beynəlxalq Bəhai İcmasının BMT-dəki Baş nümayəndəsi Bani Duqal ilə görüş;
- Polşanın Baş ravvini Maykl Josef Şudrix ilə görüş;
- Portuqaliya Şabad Mərkəzinin baş direktoru Ravvin Ali Rozenfeld ilə görüş;
- "Brigham Young" Universitetinin Beynəlxalq Hüquq və Dini Araşdırmalar Mərkəzinin direktoru professor Bret Şarfs ilə görüş.

### Türkiyə Respublikasına səfər

Dövlət Komitəsinin sədri Ramin Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti 2024-cü il 27-30 may tarixlərində Türkiyə Respublikasında səfərdə olmuşdur.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- Türkiyə Respublikasının Diyanət İşlər Başqanı Əli Ərbaş ilə görüş;
- Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrımın təşəbbüsü ilə Türkiyə Böyük Millət Məclisində görüş;
- Türkiyə Cəfərilərinin lideri Səlahəddin Özgündüz ilə görüş;
- Türkiyə Diyanət Vəqfinin icraçı direktoru İzani Turan ilə görüş;
- Diyanət Akademiyasının başqanı Ənvər Osman Kaan ilə görüş;
- İstanbul 29 Mayıs Universitetinin rekoru Mustafa Sinanoğlu ilə görüş;
- Mütəvəlli Heyəti başqanı Təyyar Altıkulaç ilə görüş;
- İslam Araşdırmalar Mərkəzinin rəhbəri Murtaza Bədir ilə görüş.

**Birləşmiş Ərəb Əmirliklərinə səfər**

Komitə sədri Ramin Məmmədov 2024-cü ilin iyunun 3-4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində xidməti səfərdə olmuşdur. Səfər çərçivəsində Komitə sədri Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamla görüşmüşdür.

**Misir Ərəb Respublikasına səfər**

2024-cü il 7-8 iyun tarixlərində Azərbaycan Respublikasının Prezidenti Misir Ərəb Respublikasında rəsmi səfərdə olmuşdur. Komitə sədri Ramin Məmmədov nümayəndə heyətin tərkibində səfərdə iştirak etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əl Tayyib ilə görüşmüşdür. Görüş zamanı müzakirə edilən bir sıra məsələlərlə yanaşı, ölkəmizdə ərəb dilinin, İslam mədəniyyətinin tədqiqinə və tədrisinə diqqətin artırılması, o cümlədən Əl-Əzhərin bu sahədə dəstək göstərəcəyi ifadə edilmişdir.

**Gürcüstana səfər**

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin dəvəti ilə Komitə sədri Ramin Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti 2024-cü il 12-13 iyun tarixlərində Gürcüstana səfər etmişdir.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- Gürcüstan Katalikos-Patriarxının xorepiskopu, mitropolit Teodor ilə görüş;
- Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze ilə görüş;
- Tbilisidəki Cümə məscidində Bütün Gürcüstan Müsəlmanları İdarəsinin din xadimləri ilə görüş;
- Rustavidə yerləşən "Cümə" məscidi dini icmasının üzvləri olan azərbaycanlılarla görüş;
- Qardabani şəhərindəki "Marağa" məscidində azərbaycanlılarla görüş;
- Qardabani şəhərindəki "Əl-Hikmət" mərkəzində Gürcüstandakı soydaşlarımızla görüş.

**Braziliya Federativ Respublikasına səfər**

Komitə sədri Ramin Məmmədov G20 Dinlərarası Forumu və Din və Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Tərəfdaşlığın dəvəti ilə Din və Dayanıqlı İnkişaf üzrə İllik Forumda iştirak etmək məqsədilə 2024-cü il 17-24 avqust tarixlərində Braziliya Federativ Respublikasının Brazilia şəhərində səfərdə olmuşdur.

Forumun din, dünyəvilik, din və qütbləşmə problemlərinə həsr olunmuş sessiyasında çıxış edən Dövlət Komitəsinin sədri Ramin Məmmədov Azərbaycanın dinlərarası və mədəniyyətlərarası harmoniyaya əsaslanan multikulturalizm modeli, eləcə də bu nümunəvi mühitin qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat vermişdir.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- G20 Dinlərarası Forumunun prezidenti Kol Durham ilə görüş;
- Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "On iki Həvari Kvorumu"nun üzvü Yulises Soareş və kilsənin səlahiyyətli nümayəndəsi Şeron Yubank ilə görüş;
- Stirlinq Fondunun prezidenti Mayls Hansen ilə görüş;
- Radiant Fondunun icraçı direktoru Ancela Reddinq ilə görüş;
- Dinlərarası Alyansın vitse-prezidenti Həmad Xatir ilə görüş;
- Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) baş katibi Zuhair Əlharti ilə görüş;
- Özbəkistan Prezidentinin müşaviri Muzaffar Kamilov ilə görüş.

**Misir Ərəb Respublikasına səfər**

Komitə sədri Ramin Məmmədov Misir Ərəb Respublikasının İslam Məsələləri üzrə Ali Şurasının Baş katibi Məhəmməd İzzət Məhəmmədin dəvətilə "Maarifləndirmədə Qadınların rolu" mövzusunda 1-ci Beynəlxalq Moizəçi Qadınlar konfransında iştirak etmək məqsədilə 2024-cü il 24-26 avqust tarixlərində Qahirə şəhərində səfərdə olmuşdur.

"Dini maarifləndirmədə qadınların rolu" mövzusunda çıxış edən Dövlət Komitəsinin sədri Ramin Məmmədov ölkəmizdə qadın hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasəti barədə məlumat vermiş, Azərbaycanda dini maarifləndirmə prosesində qadınların

fəallığının təmin edilməsi istiqamətində aparılan işlər və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci xanımı, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun uğurlu fəaliyyəti barədə danışmışdır.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

Misir Ərəb Respublikasının Dini işlər və vəqflər naziri Usama Əl-Əzhəri ilə görüş;

Misirin baş müftisinin baş müşaviri və Ümumdünya Fətva Evlərinin Baş katibi İbrahim Nəcm ilə görüş.

**Rusiya Federasiyasına səfər**

Dövlət Komitəsinin sədri Ramin Məmmədov və sədr müavini Sahib Nağıyev Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi, Rusiya Müftilər Şurası və Beynəlxalq Müsəlman Forumunun dəvəti ilə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin VIII Qurultayı və "Sülh yolu: dialoq harmonik birgəyaşayışın əsası kimi" mövzusunda keçirilən XX Beynəlxalq Müsəlman Forumunda iştirak etmək məqsədilə 2024-cü il 20-22 sentyabr tarixlərində Moskva şəhərində səfərdə olmuşlar. Forumda çıxış edən Ramin Məmmədov Prezident cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət-din siyasəti, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan hökuməti tərəfindən tarixi və dini abidələrin, müqəddəs yerlərin və ziyarətgahların bərpası, yenidən qurulması və mühafizəsinin təşkili istiqamətində görülən tədbirlər, eləcə də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mövcud yüksək strateji əməkdaşlıq əlaqələri, bu əməkdaşlığın mühüm tərkib hissəsi kimi dini sahədə əlaqələrin əhəmiyyəti barədə danışmışdır. Səfər çərçivəsində sədr müavini Sahib Nağıyev və Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun üzvləri ilə görüş keçirmişlər.

**ABŞ-yə səfər**

Dövlət Komitəsinin sədri Briqam Yanq Universitetinin Beynəlxalq Hüquq və Din Araşdırmaları Mərkəzi, habelə Stirlinq Fondunun dəvəti ilə "Dini etiqad azadlığı sülh quruculuğunda vasitədir" mövzusunda 31-ci Beynəlxalq Hüquq və Din Simpoziumunda iştirak etmək məqsədilə 2024-cü ilin 2-10 oktyabr tarixlərində ABŞ-nin Yuta Ştatında səfərdə olmuşdur. "Müsəlman Dünyası – Dövlət-Din münasibətləri" adlı plenar sessiyada və tədbirin bağlanış mərasimində çıxış edən Ramin Məmmədov Azərbaycan Respublikasında dini sahədə həyata keçirilən uğurlu dövlət siyasətindən danışmışdır.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nəzdində fəaliyyət göstərən Stirlinq Fondu tərəfindən hökumət nümayəndələri, elmi-tədqiqat institutlarının ekspertləri, dini icmaların və vətəndaş cəmiyyəti təşkilatlarının rəhbərləri üçün təşkil olunan görüş;
- Briqam Yanq Universitetində təşkil edilən kursda Azərbaycan dilini öyrənən tələbələrlə görüş;
- "Dinlərarası Qonşuluq Şəbəkəsi"nin həmtəsisçisi, Qlobal Məsələlər İnstitutunun prezidenti, "Nortvud" kilsəsinin baş pastoru Bob Roberts;
- "Dinlərarası Qonşuluq Şəbəkəsi"nin digər həmtəsisçisi, "Dallas Müsəlman Cəmiyyəti Mərkəzi" dini təşkilatının imamı Məhəmməd Məcidlə də görüş;
- Sonuncu Gün Müqəddəsləri Kilsəsinin 12 Həvarilər Kvorumunun üzvləri olan Deyvid Bednar və Ulisez Soarezlə görüş;
- Yuta ştatının "Kol Ami" adlı ən böyük yəhudi icmasının sədri ravvin Samuel Spektor ilə görüş;
- Yuta Müsəlman Vətəndaş Liqasının təsisçisi Avais Əhməd ilə görüş.

**Kamboca Krallığına səfər**

Dövlət Komitəsinin sədri Beynəlxalq Tolerantlıq və Sülh Parlamentinin "Sülh, barışıq və tolerantlıq axtarışı" mövzusunda 11-ci plenar sessiyasında iştirak etmək məqsədilə noyabrın 22-25-də Kambocanın Pnompen şəhərində səfərdə olmuşdur. Açılış sessiyasında çıxış edən Komitə sədri etnik-dini zəmində baş verən münaqişə və qütbləşmələrin, irqi ayrı-seçkilik, dini ekstremizm, ksenofobiya kimi təzahürlərin bəşəriyyətin əmin-amanlığını ciddi təhlükə altına qoyması, eyni zamanda Azərbaycanın dinlərarası və mədəniyyətlərarası harmoniyaya əsaslanan multikulturalizm modeli, bu nümunəvi birgəyaşayış mühitinin qorunması istiqamətində həyata keçirilən dövlət siyasəti, Prezident cənab İlham Əliyevin ölkəmizin tolerantlıq və inklüzivlik modeli kimi tanıdılması istiqamətində həyata keçirdiyi siyasətin əsas istiqamətləri barədə danışmışdır. Səfər çərçivəsində Kamboca Krallığı Senatının prezidenti, keçmiş baş nazir Hun Senlə görüş keçirilmişdir.

**Portuqaliya Respublikasına səfər**

Dövlət Komitəsinin sədri BMT-nin Sivilizasiyalar Alyansının yaranmasının 20 illiyinə həsr olunmuş "Sülhdə birlik: etimadın bərpası, gələcəyin yenidən formalaşdırılması" mövzusunda keçirilmiş 10-cu Qlobal Forumda iştirak etmək məqsədilə 2024-cü il noyabrın 26-da Portuqaliyanın Kaşkayş şəhərində səfərdə olmuşdur. Forumda çıxış edən Ramin Məmmədov Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə etnik və dini tolerantlıq mühitinin qorunması, dini etiqad azadlığının təmin edilməsi, dini icmalara maddi və mənəvi dəstək göstərilməsi istiqamətində həyata keçirilən tədbirlər, işğaldan azad edilmiş ərazilərdə məscid və kilsələrin bərpası, dövlət-din münasibətlərinin inkişafında Azərbaycanın nümunəvi təcrübəsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dinlərarası dialoq və əməkdaşlığın gücləndirilməsi sahəsində ölkə daxilində və xaricində həyata keçirilən çoxsaylı layihələr barədə məlumat vermişdir.

**Mərakeş krallığına səfər**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 2024-cü il 15-18 dekabr tarixlərində Mərakeş Krallığının paytaxtı Rabat şəhərində səfərdə olmuşdur. Nümayəndə heyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, ICESCO, Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Səfirliyinin birgə təşkilatçılığı ilə Rabat şəhərində ICESCO-nun mənzil-qərargahında “Dinlərarası harmoniya: dinc birgəyaşayışın təşviqi” mövzusunda beynəlxalq konfrans, eləcə də “Ortaq bəşəri dəyərlər, müxtəlif dinlər” adlı fotosərgidə iştirak etmişdir.

***Səfər çərçivəsində keçirilmiş görüşlər:***

- ICESCO-nun Baş direktoru Salim Əl-Malik;
- “Rabitə Məhəmmədiyyə Üləma” Birliyinin Baş katibi Əhməd Abadi;
- Mərakeş Krallığının Dini Vəqflər və İslam İşləri naziri Əhməd Toufiq;
- Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədin müşaviri Andre Azuley ilə görüş.

## 2024-cü il ərzində imzalanmış anlaşma memorandumları

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qırğız Respublikasının Dini İşlər üzrə Dövlət Komissiyası arasında 2024-cü il aprel ayının 24-də Bakı şəhərində Anlaşma Memorandumu imzalanmışdır. Sənəd din sahəsində dövlət siyasətinin aparılması üzrə məlumat və təcrübə mübadiləsi, dini təhsil müəssisələri arasında tərəfdaşlığın dəstəklənməsi və digər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığı özündə əks etdirir.

Komitə sədri Ramin Məmmədovun 2024-cü ilin 2-10 oktyabr tarixlərində ABŞ-nin Yuta Ştatına səfəri çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutu ilə ABŞ-nin Briqam Yanq Universiteti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda hər iki ali təhsil müəssisəsi arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, multikulturalizm və tolerantlığı təşviq edən birgə layihələrin reallaşdırılması, eyni zamanda professor-müəllim heyəti və tələbələrin hər iki ölkənin tarixi, mədəniyyəti ilə bağlı məlumatlandırılması məqsədilə tədbirlərin təşkili, qarşılıqlı akademik səfərlərin həyata keçirilməsi, dinlər və xarici dillərin öyrənilməsi sahəsində təcrübə mübadiləsi və digər məsələlər öz əksini tapmışdır.

***

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR SAHƏSİNDƏ

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında təsdiq edilmiş mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri hesabat dövründə 16 mərkəzi şəhər və rayonda – Şirvan, Xaçmaz, Gəncə, Şəki, Yevlax, Şamaxı, Göyçay, Sabirabad, Şəmkir, Masallı, Zaqatala, Ağcabədi, Lənkəran, Şirvan, Naxçıvan və Qubada vətəndaşları qəbul etmişdir. Qəbullar zamanı Komitənin fəaliyyət istiqamətlərinə uyğun olan müraciətlər cavablandırılmış, qaldırılan məsələlərin həlli ilə əlaqədar müvafiq göstərişlər verilmişdir.

Komitənin rəsmi saytının dizayn və informativlik baxımından yeni metodlara uyğunlaşdırılması baxımından müasir tələblərə cavab verməsi məqsədilə davamlı işlər aparılmışdır. Saytın domeninin adı müvafiq olaraq “scara.gov.az” olaraq dəyişdirilmişdir.

Eyni zamanda, dini qurumlarla iş sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, məlumatlara əlçatanlığın və şəffaflığını təmin olunması, habelə bu sahədə dövlət xidmətlərinin elektron formada göstərilməsinin təşkil edilməsi məqsədilə AMİN elektron xidmətlər və informasiya sistemləri portalı yaradılması ilə bağlı hazırlıq işlərinə başlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları”na uyğun olaraq, vətəndaşların müraciətlərinin operativ cavablandırılması məqsədilə “Çağrı mərkəzi”nin yaradılması tamamlanmışdır.

**Dövlət Komitəsinin rəsmi saytı və sosial şəbəkə hesablarında yayımlanan məlumatlar**

| | |
|---|---|
| Dövlət Komitəsinin rəsmi saytında yerləşdirilən məlumatlar | 893 |
| Sosial şəbəkə səhifələrində paylaşılan məlumatlar | 565 |
| Sosial şəbəkə səhifələrində paylaşılan posterlər | 130 |
| Sosial şəbəkə səhifələrində paylaşılan videoçarxlar | 12 |

Komitənin fəaliyyətinin mediada işıqlandırılması, şəffaflığın təmin olunması məqsədilə görülmüş işlər barədə məlumatların ictimaiyyətə çatdırılması təmin edilmiş, bununla əlaqədar press-relizlər, məlumat bülletenləri, bəyanatlar, müsahibələr, çıxışlar hazırlanaraq yayımlanmışdır.

Komitənin sifarişi ilə hazırlanmış “Nicat tapanlar”, “Həmişə bizimləsiniz!” filmləri geniş ictimaiyyətə çatdırılmışdır.

Dövlət Komitəsində qurumun fəaliyyətini müasir tələblərə uyğunlaşdırmaq, işin keyfiyyətini yüksəltmək, daha çevik və operativ idarəetməni təmin etmək məqsədilə struktur dəyişiklikləri aparılmış, bir neçə şöbə ixtisar edilmiş və yeni şöbələr yaradılmışdır.

***

## MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN FƏALİYYƏTİ

Dini etiqad azadlığı sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunması və təbliğinə, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanması və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etmək məqsədilə yaradılmış Fond 2024-cü ilin müvafiq dövründə müxtəlif istiqamətlərdə fəaliyyətini davam etdirmişdir.

Fondun maliyyə dəstəyi ilə Ramazan ayında ölkəmizin bir sıra şəhər və rayonlarında iftar süfrələri təşkil olunmuşdur. Fondun sifarişi ilə şəhid ailələri üçün xüsusi tərtibatda hazırlanmış Qurani-Kərim kitabı Bakı şəhərində və bölgələrdə keçirilən tədbirlərdə şəhid ailələrinin üzvlərinə hədiyyə edilmişdir.

Eyni zamanda, Fondun maliyyə dəstəyi və Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsi “Heydər Cümə” məscidi dini icmasının təşkilatçılığı ilə həyata keçirilən layihə çərçivəsində Komitənin təşəbbüsü ilə çəkilən “Nicat tapanlar” filmi ingilis dilinə tərcümə edilmişdir.

Hesabat dövrü ərzində xarici əlaqələrin inkişaf etdirilməsi istiqamətində də işlər davam etdirilmişdir. Belə ki, 2024-cü il 28-30 may tarixlərində İndoneziyanın Cokyakarta şəhərində Sunan Kalijaga Dövlət İslam Universiteti, Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu,

Kırıkkale Universiteti İslam elmləri fakültəsi və İslam Ölkələri Tətbiq və Araşdırma Mərkəzinin birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda III Beynəlxalq Simpozium keçirilmişdir. Simpoziumda Azərbaycan, Türkiyə, Malayziya, Tayland, Filippin, Banqladeş, Özbəkistan, Misir, Pakistan və digər ölkələrdən qonaqlar iştirak etmiş, 300-dən çox alimin məruzəsi dinlənilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1 oktyabr 2024-cü il tarixli Fərmanı ilə "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilmişdir. Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların və xaricdə yaşayan azərbaycanlıların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir. Dini qurumların vətəndaşların və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinin həyata keçirilməsinə dəstək verməkdir.